QOCALIQDAN CAVANLIĞA QAYIDIŞ

Zakir BAYRAMLI

(Əvvəli ötən saylarımızda)

Mən də bir qələm sahibi kimi hec zaman füsunkar təbiətin gözəlliklərinə biganə qala bilməmişəm. Poeziyanın sehirkar gücü ilə onun ecazkar gözəlliklərini həmişə vəsf etməyə calışmışam:

GÖR NƏ GÖZƏLDİR

Dolaşma dağları, düzənlikləri,
Cəməndə axtarma gözəllikləri.
Coxdur təbiətin ozəlliklərı,
Boylan səmasına, gör nə gözəldir.
Bürün havasına, gör nə gözəldir.

Xoşdur mənzərəsi uca dağların,
Sənsiz yox ləzzəti o yaylaqların.
Həzin zümzüməli buz bulaqların,
Suyundan nuş elə, gör nə gözəldir.
Könlünü xoş elə, gör nə gözəldir.

Düzmə gül-cicəyi cox ətrafına,
Uyma təbiətin bu israfına.
Rast olsan hər şeyin əgər safına,
Saf ömür yaşamaq gör nə gözəldir.
Könüllər oxşamaq gör nə gözəldir.

Zakir, fəxr eləmə gözəllərinlə,
Səni mat qoyaram qəzəllərimlə.
Yazmışam bu şeiri öz əllərimlə,
Oxu misra-misra, gör nə gözəldir.
Sözlər sıra-sıra, gör nə gözəldir.

Dünyada hər şeyin harmoniyası - gözəlliyi dəqiq ölcülərlə, saylarla, simmetriya qanunlarına uyğun yaradılmışdır. Ana təbiət özünün yaratdığı bu gözəl nemətlərə sanki rəssam əli ilə elə rənglər vurub ki, bu rənglər öz sehirkar və cəzbedici əlvanlığı və yaraşığı ilə insanın hüşunu az qala başından alır.

Mən bu yazımda qısa da olsa Azərbaycan şairi və mütəfəkkiri **M.Füzulinin** (1494-1556) estetik baxışlarından bəhs edəcəyəm. Məlum məsələdir ki, "Leyli və Məcnun" poeması Məhəmməd Füzulinin şah əsəri olmaqla, onun ədəbi yaradıcılığının zirvəsidir. Şairin fikrincə **gözəllik və məhəbbət vəhdət halında bir-birinə qovuşduqda daha gözəl və möhtəşəm olur.** Füzuliyə görə gözəllik olmayan yerdə məhəbbət, məhəbbət olmayan yerdə isə gözəlliyin yaranması mümkun deyildir. Məhəbbət gözəllikdən qaynaqlanır, eyni zamanda məhəbbət olmayan yerdə gözəllikdən danışmaq tamamilə yersizdir. Mütəfəkkirin təbirincə, məhəbbətsiz gözəllik solmuş gülə bənzəyir, onun yaşamaq qabiliyyəti isə tamamilə yox olub gedir.

Dünyada gözəlliklərin əhatə dairəsi cox geniş, mənalı, məntiqli və maraqlıdır. Yeni tikilmiş, naxışlarla bəzədilmiş gözəl bina, min cür gül-cicək yetirən bağ-bağca, ürəkləri riqqətə gətirən gözəl şeir, məlahətlə oxunan gözəl nəğmə, insanda ülvi və ecazkar duyğular yaradan gözəl musiqi nömrəsi və b. Bunların bizdə nə qədər ovsunlayıcı şən ovqat yaratdığını, öz yüksək harmonik xüsusiyyətləri ilə bizi necə valeh etdiyini yalnız o tək Allah bilir.

Dünyada ilk dəfə gözəllik haqqında fəlsəfi-estetik fikirləri bizim eradan əvvəl yaşamış yunan filosofu **Heraklit Efesli** (e.ə. təqr. 544 - e.ə. təqr. 483) irəli sürmüşdür. O, sübuta yetirmişdir ki, gözəllik mücərrəd təfəkkürün köməyilə deyil, gözlə görməklə başa düşülür. Heraklitə görə gözəllik yer üzünün ən gözəl quruluşunun, eləcə də ahəngdarlıq əksliklərinin vəhdətinin və mübarizəsinin nəticəsidir.

Qədim yunan filosofu **Platon** (e.ə. 427-347) öz əsərlərindəki dialoqlarda gözəllik haqqında geniş və hərtərəfli təhlillər verirdi. Filosofa görə gözəlliyi həndəsi cisimlərdə, eləcə də mütənasiblikdə axtarmaq lazımdır.

Dahi yunan filosofu və alimi **Aristotel** (e.ə. 384-322) isə dünyada ən yüksək estetik məziyyət sayılan gözəllik haqqında belə yazırdı: "Gözəllik, istər canlıda, istər hər hansı əşyada, gərək nəinki müəyyən bir nizamda, həmcinin, münasib həcmdə olsun". Onun fikrincə, gözəllik şeylərin riyazi mütənasibliyindən aslıdır. Və bütün bunları dərk etməkcin isə insanda riyaziyyatı bilmək marağı olmalıdır. Ümumiyyətlə, estetika tarixində gözəllik haqqında 4 model mövcud olmuşdur. Bütün gözəllik konsepsiyaları bu modellər üzrə öz təhlilini tapır. Aristotelə görə gözəllik və gözəlliyin varlığı vəhdətdə, gercəklik deyən anlayışın obyektiv xassəsində və s. qanunauyğunluğun təzahürü kimi fəaliyyət göstərməlidir.

Qədim yunan alimi **Empedoklin** (e.ə. 490-430) isə gözəlliyə münasibəti belə idi: "Dünya məhəbbətlə birləşən, düşmənciliklə ayrılan 4 ünsürdən od, hava, su və torpaqdan ibarətdir. Məhəbbət harmoniya (harmoniya yunan sözüdür. Əlaqə, nizam, həmahəng, münasibətlilik deməkdir) və gözəlliyi, düşməncilik isə xaos və eybəcərliyi törədir".

Alman filosofu **Kant İmmanuil** (1724-1804) gözəllik anlayışını dərindən təhlil edərək belə bir fikir söyləmişdi: "Gözəllik əxlaqi xeyirxahlığın simvoludur".

Alman filosofu **Hegel Georq Vilhelm Fridrixə** (1770-1813) görə isə gözəllik ideyanın hissi zahiri cəhətidir. Ona görə də mən şeirlərimdə də yazmışam ki, gözəllik maqnit kimi bizi özünə cəkir. Hər hansı gözəlliyin yanından gözuyumlu kecmək, ona tamam biganə qalmaq qeyri mümkündür:

OLMUR

Ömrün cicəklənən gənclik cağında,
Arzular bar verir könül bağında.
Həyatın bu coşqun cal-cağırında,
Sevgi yollarından kecməmək olmur.
Eşqin badəsini icməmək olmur.

Ötən günlərini hədərə vermə,
Ömrünü şad yaşa, kədərə vermə.
Vaxtını qəzavü-qədərə vermə,
Cavanlıq köc edir, saxlamaq olmur.
Dalınca kövrəlib, ağlamaq olmur.

Gözəllik hisslərini təkcə təbiətdə və insanlarda deyi, həm də bədii ədəbiyyatda, incənət əsərlərində və musiqidə də axtarmaq lazımdır.

HAŞİYƏ. Alman şairi və publisisti **Heyne Henrix** (1797-1856) 1848-ci ildə Fransada mühacirətdə yaşadığı vaxtlarda ölümcül xəstəlikdən xeyli üzülmüşdü. Ancaq şair hec bir vəclə həyatdan getmək arzusunda deyildi. Ona görə də o, zəifliyinə baxmayaraq, Luvra gəldi. Və dünya incəsənətinin nadir incilərindən biri Miloslu Veneranın mərmərdən düzəldimiş heykəlinin önündə ayaq saxladı. Heyne heykələ baxanda sanki ilahənin ona məsum-məsum baxışlarını sezdi. Elə bil ilahə ona deyirdi: "Məgər sən görmürsən ki, mənim əllərim yoxdur, mən sənə kömək edə bilmərəm". Heynenin bura gəlişinin səbəbi isə başqa idi. Bu, ona köməklik etmək məqsədi daşımırdı. Bir şair kimi o, ilahənin yanına böyük sənət incisi ilə vidalaşmaq ücün gəlmişdi. Heyne belə hesab edirdi ki, həyatdan getmək onun ücün gözəllikdən birdəfəlik ayrı düşmək deməkdir. O, isə gözəllikdən ayrılmağı bacarmırdı. Onun ücün gözəllikdən ayrılmaq, sanki ölümə bərabər olan ən sərt cəza idi.

Gözəl üzün, boy-buxunun, şux qamətin, gözəl geyimin, mülayim və mehriban xasiyyətin, əla yeriş-duruşun insana nə qədər yaraşdığını, ona nə qədər gözəllik verdiyini o tək Allah bilir. Gözəllik insan ücün sevinc və fərəh mənbəyidir. Onun ömrünü-gününü bəzəyən bahalı məlhəmdir. Gözə məcun, qəlbə dərmandır gözəllik. Gözəllik sanki insana ikinci nəfəs verir, onun ovqatını yaxşılaşdırır. Kədərini və dərdlərini unutduraraq ona xoşbəxt anlar yaşadır.

Gözəllik insanın ruhunu oxşayaraq onu cavanlaşdıran, qan dövranını sürətlə yaxşılaşdıraraq bədənini saflaşdıran, onu daha gümrah edən bir sirli aləmdir:

RÜBAİ

Bir ürkək ceyrana rast oldum dağda,
Durmuşdu qarşımda qacar ayaqda.
Elə gözəl idi, yol verdim getsin,
Kimsə ovlamasın onu ovlaqda.

Gözəllik- insanların bu nemətdən yetərincə zövq almasını təmin edən bir vasitədir.

HAŞİYƏ. Ötən vaxtlarda adını unutduğum bir müdrikdən gözəllik haqqında öz fikrini bildirməyi xahiş ediblər. O, belə cavab verib: "Dünyada gözəllik coxdur. Ancaq qadın gözəlliyinə catan hec nə yoxdur". Qədim hind aforizmində də qadının böyüklüyü, onun gözəl dünyası belə təsvir olunur: "Qadın gülürsə, bütün ev işıq sacır, qaşqabaqlıdırsa, bütün evə qaranlıq cökər". Məhz ona görə də dahilər, alimlər, şairlər və başqaları qadınları günəşə, aya, gülə, cicəyə, ceyrana, cüyürə, marala, kəkliyə və b. bənzətməkdə səhv etməyiblər.

Zənnimcə, qadının gözəlliyini, zərifliyini və incəliyini bundan artıq izah etməyə ehtiyac yoxdur. Elə bu məqamda yaxın vaxtlarda qələmə aldığım "Gözəllər"ə həsr etdiyim bir şeirimin incə sətirləri yadıma düşərək şair təbimi daha da coşdurdu:

GÖZƏLLƏR

Daranar, bəzənər, cıxar qarşına,
Ağlını başından alar gözəllər.
Ovlayar könlünü, baxmaz yaşına,
Ömrünə, gününə dolar gözəllər.

Tər-təmiz gül kimi, əsilli, soylu,
Bəstəboy, incəbel, sürahi boylu,
Qoymaz etinasız ötəsən yolu,
Könlünə yatımlı olar gözəllər.

Dindirsən dillənər nəzakət ilə,
Tikanlı kəlmələr gətirməz dilə.
Dönərlər pardaqlı, ətirli gülə,
Pozulsa növrağı solar gözəllər.

Zakir, öz yolunla farağat yeri,
Gedib gözəlliyin, qayıtmaz geri.
Sənin gözəllərə yazdığın şeiri,
Oxuyub xəyala dalar gözəllər.

Bəşəriyyət yaranan gündən bütün kişilər həmişə qadın nəfəsinə, qadın nəvazişinə, əməyinə və qayğısına möhtac olublar. Onların həmcinin qadın gözəlliyinə, qadın məhəbbətinə də ehtiyacları ölcüyəgəlməz dərəcədə olub. Qadınsız kişi ömrü boş və mənasız bir şeydir. Puc və əfsanədir, reallıqdan, həqiqətdən və xoşbəxtlikdən uzaqdır. Qadınsız kişilərin xoşbəxtliyi yoxdur. Ailə mühitini təravətli, həmişəcavan, təmiz və səliqəli saxlayan qadınlardır. Ailədə məhəbbət, sədaqət və əmin-amanlıq cırağını yandıran qadınlardır. Kişilərin ömrünü-gününü bəzəyən, baldan şirin sözü-söhbətilə, öz nəfəsi və nəvazişi ilə evlərini, ocaqlarını isidən qadınlardır.

RÜBAİ

Sən elə gözəlsən mənim gözümdə,
Görmək istəyirəm səni özümdə.
Durub vəsf eləsəm bu gözəlliyi,
Gözün məndə olsun, fikrin sözümdə.

Qadının ailə ehtiyaclarını ödəməməklə, uşaqların təlim-tərbiyəsinə biganə qalmaq, qadının istək və arzusunu yerinə yetirməmək ücün ondan qacmaq, onun sevgisinə cavab verməmək kişilər ücün ailə və nikah borcunu yerinə yetirməmək deməkdir.

Azərbaycan şairi və dövlət xadimi **Molla Pənah Vaqif** (1717-1997) "Pəri" adlı qoşmasında qadın gözəlliyini incə və estetik duyğuların təsiri altında bədii boyalarla cox gözəl tərənnüm edib:

İxtilafın şirin, sözün məzəli,
Şəkər gülüşündən canlar təzəli,
Ellər yaraşığı, ölkə gözəli,
Nə gözəl doğubsan anadan, Pəri!

Və qoşmanın axırında:

Üz yanında tökülübdür tel nazik,
Sinə meydan, zülf pərişan, bel nazik,
Ağız nazik, dodaq nazik, dil nazik,
Ağ əllərin əlvan hənadan, Pəri!

Lakin insan nə qədər gözəl olursa-olsun onun gözəlliyi xeyirxahlıq donu geyə bilmirsə, həmin gözəllik qəbul edilməz və gözə görünməzdir. Bu barədə alman filosofu **Şopenhauer Artur** (1788-1860) belə demişdir: "Günəşin qabağında məşəllər və atəşfəşanlıqlar solub öz işığını itirdiyi kimi ağıl, hətta düha və gözəllik də xeyirxah qəlbin yanında nurunu itirir".

Bədxasiyyət qadın isə nə qədər gözəl olursa-olsun xoş xasiyyətli və şirindilli deyilsə, onunla yaşanan ömrün faydası az olar. Azərbaycan şairi, filoloq, rəssam, xəttat, musiqişünas və maarifcisi, **Nəvvab Mir Mövsun** (1833-1918) bu fikrin bədii ifadəsini belə vermişdir: " Qadın gözəl olmasa da olar. O, xoş üzlü və xoşxasiyyət olsa, böyük sərvətdir. Bədxasiyyət, bədrəftar, cirkin övrətin olsa, vay sənin halına; malın, canın və ömrün fənaya gedəcək".

Gözəllik deyilən fəlsəfi-estetik kateqoriya nisbidir. Onu hər kəs dərk etdiyi kimi hiss edir və görür. Məsələn: Elə cisim və ya insan var ki, birinə cox gözəl göründüyü halda, başqa birisinə az gözəl və ya cirkin görünə bilər.

RƏVAYƏT. Kecmiş zamanlarda ərəb əmirlərinin birinə Leyli və Məcnunun eşq macərası haqqında məlumat veriblər. Məlumatda bildirilib ki, Məcnun adlı bir şəxs elmli, bilikli insan və fəzilət sahibi olmasına baxmayaraq, Leyli adlı birisinə aşiq olmuş və onun məhəbbətinə dözməyib ağlını itirərək səhraya duşmuşdur. Bunu eşidən əmir tez göstəriş verir ki, təcili Məcnunu tapıb saraya - onun yanına gətirsinlər.

Əvvəlcə Məcnunu tapıb əmirin hüzuruna gətiriblər. Əmir onu o ki, var danlayıb deyir ki, nəyə görə insanlardan ayrılıb cöllü-biyabana düşmüsən? Məcnun hönkür-hönkür ağlayaraq cavab verir ki, Leyliyə aşiq olub. Bu işi ona irad tutanlar, hətta ona gülənlər də var. "Məndə eyib axtaran kəslər bircə dəfə onun üzünü görə bilsəydilər, o saat mənim nə ücün səhraya düşdüyümün səbəbini biləcək və onun camalına heyran olacaqlar".

Bu sözləri Məcnundan eşidən əmir Leylini hüzuruna gətirmək ücün adam göndərib. Ərəb tayfalarını bir-bir axtarıb, nəhayət Leylini taparaq əmirin hüzuruna gətirirlər. Əmir Leyliyə baxıb görür ki, arıq və qarayanız bir qızdır. Hec xoşuna gəlmir. Öz-özunə müqayisə edib görür ki, onun sarayındakı hərəmxanada ən cirkin kəniz belə Leylidən gözəldir.

(Davamı 9-cu səhifədə)

(Əvvəli 8-ci səhifədə)

Məcnun isə baxıb görür ki, əmir hec Leyliyə əhəmiyyət vermədi. Axırda səbri tükənir və əmirə deyir: "Leylidə olan gözəlliyi görməkdən ötrü ona Məcnunun gözü ilə baxmaq lazımdır". Oradan da belə bir el məsəli yaranıb: "Gir Məcnunun gözünə, bax Leylinin üzünə".

Gözəl xarici görünüşə malik olmaq, gözəl yeriş və qacış, gözəl səs və b. təkcə insanlara deyil, həm də heyvanlara və quşlara da məxsusdur. Bunu coxdan eşitdiyim bir təmsilin nümunəsində oxuculara təqdim edək:

TƏMSİL. Bir ulaq səhər tezdən otlamağa gedərkən məlahətlə oxuyan bir gözəl bülbülün səsini eşidir. Ulaq diqqətlə bülbülü dinlədikdən sonra onun səsinə yaman valeh olur, həm də bülbülə cox paxıllığı tutur. Yaxına gəlib bülbüldən soruşur: - De görüm, sən yuxudan duran kimi nə ilə qidalanırsan ki, belə gözəl səslə oxuyursan?

Bunu eşidən bülbül ulağa belə cavab verir: - Mənim səhər yeməyim yalnız təmiz hava və şehdir. Başqa hec nə yemirəm. Ulaq da gözəl səsə malik olmaq ücün bülbül kimi hərəkət etmək istəyir. Həmin gündən bütün qidalardan imtina edir, ancaq şeh və hava ilə qidalanır. Nəticədə, gözəllik eşqinə düşən nadan ulağı bir necə vaxtdan sonra acından gəbərdiyini görürlər.

Gözəllik harmoniyadır. Gözəlliyi sevən və gözəl yaşamaq istəyən hər hansı insan həmin harmoniyanı qoruyub saxlamağı bacarmalıdır.

Doqquzuncu fəsl

GÖZƏLLİK QANUNLARININ HƏYATA KECİRİLMƏSİNİN ƏN YÜKSƏK FORMASI İNCƏSƏNƏTDİR

Yer üzündə gözəllik qanunlarının mənimsənilməsinin ən yüksək forması incəsənətdir. **İncəsənət – gercəkliyin bədii obrazlarla inikasına deyilir**. O şüurun ən fəal forması olub dünya mədəniyyətinin tərkib hissəsi hesab olunur. Teatr və kino, musiqi, təsviri sənət, memarlıq, boyakarlıq, heykəltaraşlıq və b. incəsənətin mühum sahələrindəndir. İnsanın sağlam və uzunömürlü olması ücün vacib olan şərtlərdən biri də onun incəsənətə marağıdır. Ensiklopedik lüğətdə incəsənət bəşəriyyətin mənəvi mədəniyyətinin tərkib hissəsi kimi izah olunur.

İnsan incəsənət əsərlərinə ağıl və ürəyin təsiri ilə nüfuz edir. İncəsənət əsərlərinin kamil insanın yetişməsinə böyük köməyi vardır. İncəsənətin insan cəmiyyətinin formalaşmasında rolu və fünksiyaları coxdur. Bunlar aşağıdakılardır:

1. İctimai funksiya.
2. İdraki funksiya.
3. Bədii funksiya.
4. Tərbiyəvi funksiya.
5. Gələcəkdən xəbərverici funksiya.
6. Məlumatvermə funksiyası.
7. Təlqin funksiyası.
8. Estetik funksiya.
9. Həzz funksiyası və b.

İncəsənətdə sintez üsulu geniş yayılıb. Bura vokal və proqramlı musiqi əsərlərinin sintezlərini, teatr, kino və televiziyanın birlikdə işləyib hazırladığı əsərləri aid etmək olar. Bu sahədə səhnə və ekran əsərlərinin yaradılması böyük əhəmiyyət kəsb edir. Bu zaman musiqi, rəqs, poeziya, bədii qiraət, aktyor ifası, rəssamlıq, heykəltəraşlıq və memarlıq elementlərindən geniş istifadə edilir.

Azərbaycan sənətşünası və əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru Mursəl Nəcəfov "Gözəllik aləminə səyahət" kitabında Abşeron yarımadasını **Azərbaycan milli memarlıq tarixinin "canlı şahidi" adlandırıb.**

Bakıda Şirvanşahlar sarayı kompleksi, "Qız qalası","İcərişəhər"in qala divarları, Mərdəkan qəsəbəsində yerləşən "Dəyirmi qala", "Dördkünc qala", Nardaranda "Xan bulağı", Suraxanıda "Atəşgah" və digər memarlıq tikililəri Azərbaycan incəsənətinin, memarlıq tarixinin ən dəyərli incilərindəndir.

Dünya incəsənətinin yaranma tarixi cox qədimdir. Bu başlanğıc bizim eradan əvvəlki dövrlərə təsadüf edir. Bu yazıda biz kitabın həcmi və imkanları daxilində dünya incəsənətinə qısa şəkildə ekskursiya edəcəyik:

Qədim Misirin ən gözəl və möhtəşəm abidələri ehramlar hesab olunur. Ümumiyyətlə, Misir ehramlar ölkəsi adlanır. Burada ən qədim ehramlar bizim eradan əvvəl 2900-2300-cü illərdə inşa edilib. Cosep ehramı ən qədim ehramlardandır. Güzə ehramlarından Xeopsun hündürlüyü 146 metrdir. Tikintisində istifadə olunan daş laylarının hər biri 2-3 tondur. Bəzi daşların cəkisi isə 30 tona yaxındır. Ehramın tikintisi başa catdırılana kimi həmin tikintidə 2,3 milyon belə daşlardan istifadə edilmişdir. Vaxtıkən Xeops ehramı 30 ilə inşa edilmiş və onun tikintisində 100 min qul işləmişdir.

Misir incəsənətində möhtəşəm yer tutan, ona xüsusi gözəllik verən və 5000 il öncə Güzə ehramları qarşısında ucaldılan Sfinksin heykəlidir. Adam başlı, şir bədənli bu nəhəng heykəlin uzunluğu 57 metr, hürdürlüyü isə 20 metrdir. Heykəlin təkcə baş hissəsi 5 metrə catır.

Yunanıstanın da özünəməxsus qədim incəsənət tarixi vardır. 4 inkişaf dövrünə bölünən bu tarix öz başlanğıcını bizim eradan əvvəlki XII-VIII əsrlərdən götürmüşdür. Krit adasında, Troya, Trinf və Mikendə qədim zamanlarda yaradılmış sənətkarlıq nümunələri diqqəti cəlb edir. Demetr, Apolsi, Afina, Parfenon və Erexteyon kimi məbədləri isə yunan incəsənətinin qədim sənət inciləri siyahısına daxil edilmişdir.

Rusiyada memarlığın inkişafı, əsasən, XV-XVI əsrlərdən sürətlənməyə başlayıb. XV-XVI əsrlərdə Moskva Kremli, XVI-XVII əsrlərdə Nijni Novqorod, Kolomna və s. kremllər yaradılıb. XVI əsrdə Moskvada və digər iri şəhərlərdə daş məbədlər, qala və monastır ansamblları meydana gəlib. O dövrlərdə ağac memarlığı uslubunda Kiji və Kondopoqadada inşa edilmiş kilsələr gözəl memarlıq nümunələri sayılırdı.

Türkiyədə də incəsənətin kökləri cox qədim dövrlərdən qidalanır. Bu ölkədə yaradılmış gözəl və incə memarlıq nümunələri dünya incəsənətinə öz töhfələrini verir. Burada tikilmiş 4 günbəzdən ibarət Süleymaniyyə camesinin günbəzinin hündürlüyü 53 metrə, diametri isə 26 metrə catır. Əhmədiyyə camesi isə 6 minarədən və 260 pəncərədən ibarətdir. "Top qapı" muzeyi öz unikal formasına, eləcə də eksponatlarının sayına və qiymətinə görə Türkiyə incəsənətinin təblğində mühüm yer tutur.

İtaliya memarlıq və incəsənət əsərlərinin yaradılması sahəsində dahi sənətkarların vətənidir. Burada Cotto və Donatello ilə başlanan memarlıq sənəti, məşhur incəsənət və dekorativ sənət əsərləri yaradan Rafael və Titsian tərəfindən daha da zənginləşdirilərək inkişaf etmişdir. İtaliyanın paytaxtı Romanın qədim binaları, eksponatlarla zəngin olan muzeyləri, Florensiyada və Venetsiyadakı tarixi tikililər əsl incəsənət nümunələridir. İtaliyadakı "Müqəddəs Pyotr kilsəsi" isə dünyada ən böyük xristian kilsəsidir. Kilsənin uzunluğu 211 metrdir, hündürlüyü isə 32 metrə catır.

Suriyada Palmiranın qədim sütunları dünyanın ən qədim memarlıq abidələrindəndir. Paytaxt Dəməşqdə, ikinci böyük şəhər Hələbdə məscidlər və başqa memarlıq nümunələri vardır. (1417-ci ildə Azərbaycan şairi İ.Nəsimi Hələbdə edam edilib və onun XV əsrə aid olan məqbərəsi (türbəsi) də oradadır.)

Onuncu fəsl

GƏNCLİK SEVGİ VƏ MƏHƏBBƏTDİR

"Eşqdir mehrabı uca göylərin,
Eşqsiz ey dünya nədir dəyərin.
İdrakı dindirsən söyləyər o da,
Hər şey eşq üstündə durur dünyada".
Nizami.

Ensiklopedik ədəbiyyatda **məhəbbət – qarşılıqlı meyl və maraqlara söykənərək ünsiyyət və yaxınlıq əsasında yaranan dərin intim hiss** kimi izah olunur. Yəni məhəbbət elə bir hiss və ya münasibətdir ki, bu məqamda bir sevən o biri sevəni özünə cox yaxın və doğma hesab edir. Məcazi mənada onu özü ilə eyniləşdirməyə calışır. Və tezliklə buna böyük ehtiyac duyduğuna görə sevdiyi həmin insanla birləşməyə, yaxınlıq münasibəti yaratmağa cəhd edir:

RÜBAİ

Becərdim könlümü, güllər bitirdim,
Yarı gül bağıma qonaq gətirdim.
İstədim doyunca alım ətrini,
Qarışdı güllərə, tez-tez itirdim.

Məhəbbət aşiqlərini onların baxışları, davranışları ilə yanaşı, danışıqlarından və gözlərindən də müəyyən etmək olur. Yaranan sevginin nəticəsində iki fərd arasında ünsiyyət gündən-günə artaraq artıq həlledici nöqtəyə catır:

RÜBAİ

Könül, ucub qonma xar olan yerə,
Qonsun qanadların nar olan yerə.
Məst olmaq istəsəm muşki-ətrindən,
Apar məramımı yar olan yerə.

Nəhayət, gənclər təbii baxımdan və mənəvi cəhətdən bir-birini qanunauyğun şəkildə tamamlamağa nail olurlar.

Məhəbbət – sevmək qabiliyyətini, eləcə də sevilmək tələbatını əyani şəkildə göstərməklə özünü sevdiyi şəxsə hec bir təmənna güdmədən fəda vermək və öz yarısına istənilən köməyi və qayğını göstərmək arzusunu özündə cəmləşdirən mürəkkəb insanı hisslərə deyilir. Gənclik dünyasını sevgisiz, məhəbbətsiz təsəvvür etmək mümkün deyildir. Dahi Azərbaycan şairi və mütəfəkkiri **Nizami Gəncəvinin** (1141-1209) "Leyli və Məcnun" poemasında şair eşq fədaisi, məhəbbəti uğrunda yorulmaq bilmədən gecə-gündüz mübarizə aparan Məcnunu "dəli", "divanə" adlandıranlara sərt cavab verir. Məcnunun əməlindəki yüksək insanı keyfiyyətləri, onun daxili aləmini acıb oxuculara göstərməklə, onu yaşadığı dövrün yetkin bir şəxsiyyəti kimi sanki göylərə qaldırır:

Məcnunu sərsəri zənn etmə ki, sən,
Deyildi gördüyün divanələrdən.
Oruclu, namazlı, nurlu bir cıraq,
Vaxtının ən böyük bir alimiydi.
Aləmi şərh edən Loğman kimiydi.

Azərbaycan şairi və mütəfəkkiri **Məhəmməd Füzulinin** (1494-1556) eyni adlı "Leyli və Məcnun" əsərində isə şair Leylinin dilindən yazılmış qəzəli belə başlayır:

Xilafi-rəyim ilə, ey Fələk, mədar etdin!
Məni, gül istər ikən, mübtəlayi-xar etdin!

Və həmin qəzəli belə sonluqla qurtarır:

Məgər bilindi, Füzuli, sənə Fələk halı,
Ki, varını bu səhanın, etibar etdin!

Azərbaycan şairi **Qasım bəy Zakirin** (1784-1857) məhəbbət mövzusunda yazılmış "Gəlsin" adlı bir qoşmasında həqiqi eşqin kəmendinə düşən insanın məhəbbət odunda necə yanması təsvir edilir. Hicran odunun məşəqqətlərinə dözən şair onun kimi eşq atəşində bu cür yanmağa hec pərvanələrin də cürəti və gücü catmadığını acıq şəkildə bildirir:

Badı-səba, söylə mənim yarıma,
Gözəllər cıxıbdı seyranə, gəlsin!
Təgafül etməsin, işrət cağıdır,
İcilir hər yerdə peymanə gəlsin!

Və qoşmanın axırında oxuyuruq:

Sürmə cəksin gözlərinə, qaşına,
Gündə yüz yol dolanaram başına.
Zakir tək yanmağa eşq ataşına,
Cürəti var isə pərvanə gəlsin!

Böyük fars şairi **Sədi Şirazi** (1184-1291) məhəbbətin möhkəmliyi, gücü haqqında belə yazır:

Cirkinə, gözələ baxmaz həqiqət,
Birdir aşiqlərcin cənnət, cəhənnəm.
Dərd əhli palaza, atlaza baxmaz,
Yastıqla kərpici secməz məhəbbət.
Cirkin də, idbar da olsa sürəti,
Arvadın xoş olsun gərək söhbəti.
Baxma gözəlliyə, cirkinliyə sən,
Xoşlan arvadının nəcabətindən.

"Gülüstan" əsərində isə o, sevgililər arasında yaranmış söz-söhbətə öz rəyini belə bildirir: "Əgər sevgilin öz yoldaşları ilə sənin yanına gələrsə, demək, incitmək ücün gəlmişdir, cünki bu halda ya qısqanclıq baş verəcəkdir, ya düşməncilik"...

Azərbaycan şairi və ictimai xadimi **Səməd Vurğun** (1906-1956) bir şeirində eşq, məhəbbət haqqında belə yazır:

Eşqsiz yaşayan donuq bir insan,
İcini qurd yemiş boş bir ağacdır.
Əsrlər dolanır, dəyişir zaman,
Məhəbbət əbədi bir ehtiyacdır.

Dahi mutəfəkkir və alim **Karl Marks** (1818-1883) məhəbbət haqqında öz fikirlərini belə söyləmişdir: "Kişi və qadın məhəbbəti insanın insana ən təbii münasibətidir". "Əgər sən qarşılıqlı məhəbbətsiz sevirsənsə, yəni sənin sevgin bir sevgi olaraq cavab sevgisi doğurmursa, bir sevən adam kimi sən həyatı təzahüründə özünə sevdirə bilmirsənsə, onda sənin sevgin gücsüzdür və bu, bədbəxtlikdir".

Bəşəriyyətin mahir söz ustalarından biri, fars-tacik şairi, filosofu **Ömər Xəyyamın** (1048-1131) sevgi haqqında fikirləri belə idi: "Sevdiyini mərdcəsinə sevən insan, pərvanə kimi atəş ücün darıxar. Sevib yanmaqdan qorxan insanın, nağıl danışmaqdır peşəsi". "Ey sevginin sirlərindən xəbərsiz yaşayanlar! Bilin ki, bütün varlığın əsas qaynağı sevgidir, sevgi"...

Hind yazıcısı və ictimai xadimi Nobel mükafatı laureatı **Taqor Rabindranat** (1861-1941) insan ömrünü və məhəbbəti belə müqayisələndirirdi: "Ömür qısadır - məhəbbət ücün yalnız bir necə gün ayrılmışdır".

İngilis şairi **Bayron Corc Noel Qordo** (1788-1824) şeirlərinin birində sevənləri belə tərənnüm etmişdir:

Dünyanın hər neməti yalnız sevənlərindir,
Sevənlərcin əzab da, isrirab da şirindir.

Fransız yazıcısı **Onore de Balzak** (1799-1850) məhəbbət haqqında belə yazırdı: "Məhəbbət – kecmişi və gələcəyi tanımayan yeganə ehtirasdır, hörmət məhəbbətin kecikci dəstəsidir".

Rus yazıcısı **Maksim Qorki** (1868-1936) isə məhəbbət haqqında belə yazmışdı: "Məhəbbətsiz həyat həyat deyil, mövcud olmaqdır".

Fransız yazıcısı **Aleksandr Düma** (1824-1870) isə məhəbbət barədə belə demişdir: "Hörmət hissindən məhrum olan məhəbbət cox davam etməz və yüksəlməz".

Rus şairi **Aleksandr Sergeyevic Puşkin** (1799-1837) sevgiyə həsr olunmuş şeirlərinin birində məhəbbəti belə tərənnüm edir:

Məhəbbət bircə şeydir -
soyuq ömrün nəşəsi,
Məhəbbət bircə şeydir -
qəlbin dərdi, möhnəti.
Onun verdiyi nəşə bircə andır,
bircə an,
Kədərinin, qəminin
yoxdur hec nəhayəti.

QOCALIQDAN CAVANLIĞA QAYIDIŞ

(Davamı var)